# Torpağı Vətən, Vətəni bütöv edənlər











# Vətən uğrunda fədakarlıq nümunəsi: şəhid Hacıəli Qasımovun həyat yolu

*Bir ananın dərdi, bir vətənin qüruru... Oğlunu Vətənə əmanət edib, göz yaşlarını ürəyinə axıdan ana... Bu dünyada ən ağır yük övladını torpağa tapşırmaqdır, amma şəhid anası olmaq sonsuz bir qürur deməkdir. Şəhid Hacıəli Qasımovun anası Mələk xanımla söhbətimiz həm göz yaşlarına, həm də qürurun əks-sədasıdır. Əvvəlcə oğlunun dünyaya göz açmasından, daha sonra məktəb illərindən söz açan Mələk xanım dərin köks ötürdü: "Oğlum 2002-ci il mart ayının 21-də Tovuz rayonunun Qaraxanlı kəndində dünyaya göz açıb, kənd məktəbində təhsil alıb. Əkiz qardaşı Hüseynəli ilə bərabər 4 övladım var, amma Hacıəli xarakterinə görə onlardan fərqlənirdi. Onun sözü bizim üçün qanun idi. Yaşının az olmasına baxmayaraq, dərin düşüncəli idi. Yadımdadır, məktəbin o zamankı direktoru Ceyran xanım hər zaman deyirdi ki, Hacıəli bu məktəbin "ağsaqqalıdır". O, həm də çox şən idi, deyib-gülməyi xoşlayırdı. Çox qürurlu uşaq idi, əsla dostunu kiminsə ayağına verməzdi. Ətrafındakı dostlarının hamısı ondan yaşca böyük idi. Deyirdim ki, bəs sən hələ 11-ci sinifdə oxuyursan, niyə özündən böyüklərlə oturub-durursan. Deyirdi ki, yaşıdlarımla fikirlərim üst-üstə düşmür. Öz qardaşına da deyirdi ki, hələ uşaqdır. Yuxuma da gəldi qardaşımla işin olmasın, uşaqdır. Çox zəhmətkeş idi, hər işin altına girirdi, istər fəhləlik olsun, istər kartof yığmaq".*



Mələk xanım danışdıqca gözlərindən yanaqlarına süzülən yaş səngimirdi. Ağlamaqdan qıpqırmızı olan gözlərində kədərlə yanaşı, oğluyla duyduğu qürur hissini də görmək mümkün idi. Ana üçün nə qədər çətin də olsa oğlunun igidliyi barədə bir anı belə qaçırmaq istəmirdi: "Hər iki oğlumun Hacıəli və Hüseynəlinin həqiqi hərbi xidmət dövrü İkinci Qarabağ müharibəsinə təsadüf etdi. Döyüşlər başladığı ilk andan övladlarım düşmənlə mərd-mərdanə vuruşublar. Hacıəli müharibə vaxtı heç vaxt harda olduğunu deməzdi. Nə zaman soruşsaq deyərdi ki, Cəlilabaddayam. Şuşa uğrunda gedən döyüşlərdə Hüseynəli yaralanmışdı. Hacıəli həmin anlarda qardaşının yanında olub. Bu zaman qardaşı ona deyib ki, mən yaxşıyam döyüş yoldaşım Elmara kömək et. Hər nə qədər müdaxilə olunsa da döyüş yoldaşları Elmar şəhid olub. Hüseynəli hərbi hospitala gəlmək istəməyib, sona qədər döyüşəcəyini, yaralı olsa da, qardaşının yanında qalacağını bildirib. Yalnız Hacıəlinin təkidindən sonra o, hospitala gedib. Mən də ona dedim ki, müalicəni götür, sonra cəbhəyə qayıt. Elə də oldu, sonuna qədər döyüşdülər. Buna görə də övladlarımla, bütün şəhidlərimizlə fəxr edirəm".

Mələk xanım deyir ki, İkinci Qarabağ müharibəsindən sonra Hacıəli hərbi xidmətdə qalmaq qərarına gəlib: "Oğlum beləcə ömrünü vətənini qorumağa həsr etdi. Hacıəli ötən il keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı yaralandı. Sentyabrın 19-da qolundan xəsarət aldı. Mən "oğlum qolundan yaralanıb" deyə şirinlik paylamışdım. Haradan biləirdim ki, şəhid olacaq. Əlaqə saxladım dedim, xəbər almışam yaralandığını. Göstər görüm vəziyyətin necədir. Dedi ki, narahat olma kiçik yaradır, heç bir problem yoxdur. Sən fəxr elə ki, qələbə bizimdir, bu cür igid oğul dünyaya gətirmisən. Dedim onsuz mən səninlə hər zaman fəxr etmişəm. Ertəsi gün onun snayperlə başından vurulduğunu öyrəndim. Ondan əvvəl danışanda demişdim ki, məni xəbərsiz qoyma. Danışanda hər zaman deyirdi ki, ana mənə görə narahat olma. Əsgərlərimin başının üstündə dayanmalıyam, onlar da qardaşım Hüseynəli kimi uşaqdırlar. Gərək onların qayğısına qalam. Mənim üçün Hacıəlidan danışmaq çox çətindir. Çünki özü döyüş bölgəsindəki proseslər barədə əsla danışmazdı. Bir dostu var idi Yadulla, o da Hacı kimi könüllü müqavilə ilə hərbi xidmətdə qalmışdı. Mənə mesaj yazdı ki, nəfəs ala bilmirəm, Xankəndini aldıq, amma Hacıəlini şəhid verdik".

Mələk xanımın adını çəkdiyi Yadulla ilə də əlaqə saxladıq. Döyüş yoldaşının səsindəki o kədəri hiss etməmək qeyri-mümkün idi, ürəyindəki yanğı hissini asanlıqla duya bilirdim. Yadulla Hacıəlinin ona dost yox, qardaş olduğunu vurğulayırdı: "Mən xidmətə başladığım ilk zamandan etibarən Hacıəliylə birlikdə olmuşuq. Həm İkinci Qarabağ müharibəsinə hazırlıq, həm də antiterror tədbirlərində daim bir-birimizin yanında idik. Allah bütün şəhidlərimizə rəhmət eləsin, hər bir şəhid bizim üçün əzizdir, amma Hacıəlinin yeri başqa idi. Hacıəlinin döyüş qabiliyyəti çox yüksək idi. O, Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edirdi, gözündə qorxu yox idi, çox cəsur idi".

Hacıəlinin anası danışdıqca gözləri uzaqlara dikilirdi: "Hələ də Hacıəlini yanımda hiss edirəm. Hacının bir qara köynəyi var, oğlumun qoxusu hələ də üzərindədir. Hər gecə yatanda o köynəklə yatıram. Gücüm çatan qədər bütün şəhid ailələrinin yanında olmağa çalışıram. Ötən il antiterror tədbirləri zamanı ağır yaralanan Hacıəli uzun müddət koma vəziyyətində qalıb. Müalicə aldığı müddətdə həkimləri ilə sıx əlaqədə olurdum, onların dediklərinin hər birini beynimdə bir araya gətirib nəticə çıxarmağa çalışırdım. Oğlumu o vəziyyətdə görmək mənim üçün çox ağır idi. Bir dəfə xəstəxanada olanda Hacıəlinin yanına qalxdım. Əlimi ayaqlarına toxundurdum, şişmişdi, normalda sevməzdi onun ayaqlarına toxunmağımı. Bu zaman da sanki geri çəkmək istədi. Dedim oğlum ayaqlarının altında ölərəm, qurban olaram sənə yenə narahat oldun? Ehmalca gözlərini tərpədərək dediklərimi təsdiqlədi. Döyüş yoldaşları da tez-tez onu görməyə gəlirdilər. Hərbi formasına çox dəyər verirdi. Xalası ilə daha çox dərdləşərdi. Sonradan öyrəndim ki, xalasına deyibmiş ki, bu gedişin dönüşü yoxdur. Elə son görüşü də xalası ilə oldu. Mən xəstə idim deyə, yanına keçməyə icazə vermirdilər. Bacım gələndə dedi ki, sanki Hacıəlinin üzünə nur gəlib. Xalası Hacıəliyə deyib ki, Allah mənim ömrümdən alıb sənin ömrünə versin. Bu vaxt onun gözlərindən yaş gəlib, bununla Hacıəli xalasına etirazını bildirməyə çalışıb".



Mələk xanım oğlu yaralanandan bəri saçlarını boyamırdı, bir gün Hacıəli yuxusuna girib deyib ki, səni belə görmək istəmirəm, ana. Hər zaman baxımlı olmuşam. Yuxuda ona dedim ki, bütün işlərimi həll edim saçlarımı boyayacam. Dedim Hacıya heç nə olmayıb, o yaşayır, niyə yas saxlayıram ki. Səhəri gün xəbər aldım ki, oğlum şəhid olub. Gözləyib ki, anası saçlarını boyasın, sonra gözlərini yumub... Bilsəm, heç saçlarımı boyamazdım, bəlkə onda oğlum yaşayardı. Hacıəli ailəsinə daim dəstək olub. Hətta öz veteranlıq kartını belə bacısına verib ki, hazırlıq pullarını onunla ödəsin. Bacı qardaşları ilə çox sıx və səmimi münasibəti var idi. Hacıəli Qasımov əsgərlərinə qarşı da çox qayğıkeş olub. O, xəstəxanada yatanda əsgərlərindən biri də eyni hospitalda idi: "Hacıəlinin əsgəri oradakı həkimlərə yalvarmışdı ki, komandirimi görməliyəm. Həkimlərdən soruşub ki, bəs komandirim nə yeyir? Həkimlər də ona qoşulan sistemlər elə onun qidasıdır deyib. Həmin əsgər əməliyyatdan çıxmasına baxmayaraq, mənim komandirim yemək yemir söyləyib və uzun müddət yemək yeməyib".



Xatırladaq ki, Qasımov Hacıəli Tahir oğlu ötən il sentyabrın 19-da Azərbaycan Silahlı Qüvvələri tərəfindən həyata keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı ağır yaralanıb, uzun müddət serebral koma diaqnozu ilə hərbi tibb müəssisəsində müalicə alıb. Amma həkimlərin səylərinə baxmayaraq, müddətdən artıq həqiqi hərbi xidmətdə olan hərbi qulluqçumuz bu il yanvarın 28-də şəhidlik zirvəsinə ucalıb. Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifəsini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu Qasımov Hacıəli Tahir oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", ölümündən sonra isə "Vətən uğrunda" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Şəhidlik - ən ali zirvədir. Bu ad, millətimizin varlığı, torpağımızın bütövlüyü uğrunda canını fəda edən qəhrəmanları yaddaşlarda yaşadır. Şəhidlər dövlətin, xalqın tarixində əbədi iz qoyurlar. Şəhidlərimiz… Adlarını tarixə qanla yazan, hər qarış torpağa həyatlarını fəda edən qəhrəmanlarımız. Onlar bu torpağı, bu milləti özlərinin fədakarlığı ilə ən yüksək zirvəyə ucaldıblar. İşğaldan azad olan torpaqlar, onları əbədiyyətə aparan yol oldu. Şəhidlərimizin hər biri Vətənin göylərində parlayan ulduzlar kimidir, qəlbimizdə əbədi olaraq yaşayacaq, hər zaman bizə yol göstərəcəklər. Onlardan geriyə qalanlar isə bizim üçün qürur dolu xatirələrdir. Bu xatirələri yaşatmaq da bir vətəndaş kimi hər birimizin borcudur. Xüsusilə vurğulayaq ki, Mələk xanım başda Prezident, Ali Baş Komandan İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva olmaqla bu günədək ona dəstək göstərən insanlara öz təşəkkürünü bildirdi.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**